Özgün Araştırma

*Humbatova, A. (2019), Ramiz Mustafayev'in müşayietli xor işlemelerinin üslub xüsusiyyetleri, Rast Müzikoloji Dergisi, 7(1), s.2019-2026. Doi:https://doi.org/10.12975/pp2019-2026*

# Ramiz Mustafayev'in müşayietli xor işlemelerinin üslub xüsusiyyetleri

Aynur Humbatova

Corresponding author:

Üzeyir Hacıbeyli adına Bakü Müzik Akademisi
aynur.humbetova.89@mail.ru , https://orcid.org/0000-0002-1213-6584

## Özet
Meqale Ramiz Mustafayevin müşayietli xor üçün xalq mahnı işlemelerinin tehliline hesr edilir. Onların sırasında müşayiet ve xor, müşayiet xor ve solist terkibi nezere çarpır. İşlemelerden yalnız biri 3 sesli xor üçün nezerde tutulmuşdur, digerleri her biri 4 sesli xor partiyasına malikdir. Dörd xor işlemesinde solist partiyası da yer almışdır. R.Mustafayevin müşayietli xor işlemelerinde ilk növbede vokal sesin imkanları xalq mahnı ifaçılığının esas üslub xüsusiyyetleri ile uzlaşır. Xor musiqisinin sirlerine yaxşı beled olan bestekar işlemelerde kollektivin vokal imkanlarını üze çıxarmaqla yanaşı, mahnının obraz-emosional mezmununun çatdırılmasına da xüsusi diqqet yetirir. Qeyd olunan xüsusiyyetler meqalede araşdırılır.

## Anahtar kelimeler
*bestekar, xor, instrumental müşayiet, işleme, xalq mahnısı, üslub*

Azerbaycan xalq musiqi yaradıcılığının zengin janrını ifade eden xalq mahnıları özünde böyük tarixi, aid olduğu xalqın yaşamını, heyat terzini, adet ve enenelerini, felsefi-psixoloji, sosial, meişet, dini ve dünyevi baxışlarını, sevinc ve kederini, qehremanlıq salnamelerini eks etdiren unikal senet nümunesidir. Xalq mahnıları xalqın özü qeder qedim olmaqla yanaşı, dinamik heyatın en inkişaflı ve rengareng janrlarından biridir. Bu janrın daşıdığı bedii-emosional mezmun, lad-intonasiya, melodik ve ritmik informasiya milli musiqinin keçdiyi tekamül prosesini izlemeye imkan verir. (Hacıbeyov, 1985, 44) Xalq mahnılarının qorunması üçün toplanaraq nota salınmasını, elmi tedqiqata celb edilmesinin vacibliyini vurğulayan Ü.Hacıbeyli öz eserlerinde bu janrdan defelerle behrelenmişdir."El mahnıları Azerbaycan xalqının ehval-ruhiyyesini şerh, zövq musiqisini beyan şeir ve musiqideki yaradıcılıq qabiliyyetinin derecesini teyin ede bilen böyük bir material olduğundan onun ister musiqi, ister edebi, ister psixoloji, ister etnoqrafik ehemiyyeti çox böyükdür. Bu sebebden onların ve (mümkün olduqca en qedim) zamanlardan beri yadda qalanlarını ve indi mövcud olanlarını, her il yeniden çıxanlarını harada da olsa yığıb nota salmaq ve ne münasibetle meydana çıxdığını dexi öyrenib tefsilatile yazmaq en vacib işlerden biridir" (Qafarova, 2009, 46).

Xalq mahnı işlemelerinin bestekar yaradıcılığında yer alması janrın yaradıcı prosesde yeni istifade metodlarının yaranmasına sebeb oldu. Bu baxımdan xor üçün nezerde tutulan işlemeler xüsusi qeyd olunmalıdır. R.Mustafayevin yaradıcılığında xalq mahnısının xor üçün işlemeleri bir neçe növde teqdim olunur (Quliyev, 2007, s159-161). Onların sırasında müşayietli xor üçün nezerde tutulan işlemeler mühüm ehemiyyet kesb edir. Ramiz Mustafayev'in

yaradıcılığının en böyük şaxesini xor eserleri teşkil edir. Bestekarın bu qebilden olan eserleri Azerbaycan xor musiqisinin zenginliyini ve nailiyyetlerini özünde ehtiva edir. Bunlardan Ana, Hüseyn Cavid, Neriman Nerimanov, İnam, Menim müasirim, salatın, Mehemmed ve Leyla, Nizami Gencevinin 800 illiyine yazdığı Nizami oratoriyaları, hak sendedir, Şevçenko, Semed Vurgun, Kür-abşeron kantataları, bu qan yerde qalan deyil, neden yarandın, Füzuli, V. Adıgözelov ile birge yazdığı sebuhi, vokal-simfonik poemaları, Lenkeran lövheleri süitası, 200'den çox halq mahnısının xor üçün işlemeleri ve s. bu kimi eserleri misal gösterebilerik (Tehmirazqızı, 2010). Ramiz Mustafayev istedadlı olmaqla yanaşı, hem de çok zehmetsever bir insandır. O öz yaradıcılığında heç vaxt pauza vermir, o daim yaradıcılıq axtarışındadır (Memmedova, 2007, s.50). Xor işlemelerinden sekkizi fortepiano müşayieti ile yazılmışdır. Onların sırasında "Yaylıq" (müşayiet, 4 sesli xor), "Ey gözel" (müşayiet, 4 sesli xor, solist), "Sevgilim" (müşayiet, 4 sesli xor, solist), "Ay gözel" (müşayiet, 4 sesli xor), "Qara gile" (müşayiet, 4 sesli xor), "Qara teller" (müşayiet, 4 sesli xor, solist), "Aman ovçu" (müşayiet, 4 sesli xor, solist), "Leylam" (müşayiet, 3 sesli xor), "Sevgilim" (müşayiet, 4 sesli xor) xalq mahnıların esasında bestelenmiş xor işlemeleridir. Göründüyü kimi bu işlemeler de müeyyen meyarlara göre qruplaşır. Onların sırasında müşayiet ve xor, müşayiet xor ve solist terkibi nezere çarpır. İşlemelerden yalnız biri 3 sesli xor üçün nezerde tutulmuşdur, digerleri her biri 4 sesli xor partiyasına malikdir. Dörd xor işlemesinde solist partiyası da yer almışdır (Zöhrabov, 2001, 80).

**"Qara teller" xalq mahnısı:**

Burda esasında xor işlemesi solo, xor ve fortepiano üçün nezerde tutulmuşdur. İşleme 5 xanelik instrumental girişle başlanır. Onun mövzusu esas melodiyanın her hansı bir frazasını ifade etmir, daha çox aletin texniki imkanlarını nümayiş etdiren passaj ve arpeciolarla xarakterikdir. Arpeciolu akordlar daha sonra instrumental müşayietin esasını teşkil edir. Xor partiyası ise hamofon-harmonik fakturaya malikdir ve fortepiano partiyasına sanki destek funksiyası daşıyır. Bestekar sanki insan seslerinin tembri vasitesile bir ansambl müşayieti elde etmişdir.

Üç xane sonra fortepiano müşayietinde de arpecio harmonik akkordlarla evezlenir ve çoxqatlı orkestr seslenmesi elde olunur. 7-ci xaneden başlayaraq ise onun partiyasında girişin mövzusu verilir ki, bu da esas melodiyaya kontrapunkt teşkil edir. İşlemenin sonuna yaxın ise solist partiyası susur ve esas melodiya Soprano seslerine hevale olunur. Tenor partiyası unisonluq teşkil edir. Kadansı ifade eden son iki xanede ise esas melodiya fortepiano partiyasında da seslendirilir.

Qeyd edek ki, xor partiyasının hamofon-harmonik quruluşunda bestekar seslerin xromatik hereketinden istifade etmişdir. Xüsusile sonuncu misranın xor terefinden ifası zamanı Alt partiyasında yaranan divizide bunu müşahide etmek olar. Bu tip keçidler, xromatik qammavari hereketler R.Mustafayevin xor işlemeleri üçün xarakterikdir.

**"Ay gözel" xalq mahnısı:**

Burda da esasında xor işlemesi 8 xanelik instrumental girişle başlanır. Onun mövzusu mahnının melodiyasına xas motivlere esaslanır. İlk iki xane daha sonra yuxarı registrde genişlendirilerek, sekvensiyalarla aşağı enir. Son iki xanede yeniden passajla yuxarı registre keçen melodiya kadans motivi ile sona yetir. Bu melodiya daha sonra xor partiyasının ikinci cümlesinde, Soprano sesinde ifa edilir.

4 sesli xor esas melodiyanın Tenor partiyasında ifası ile başlanır. Diger seslerde ise bestekarın tez-tez tetbiq etdiyi zerb müşayietini xatırladan partiyalar yer almışdır. Ritmik zerbeleri vurğulayan tek- tek sesler "dum" hecası ile ifa edilir.




Nota 1: Ay gözel halk mahnısı

Maraqlıdır ki, bestekar esas melodiyanın davamını ikinci cümlede Sopranoya hevale edir. Bu işlemeni de esas melodiyanın yerdeyişme prinsipi ile işlenmesini eks etdiren nümunelere aid etmek olar.

İkinci cümlenin ifası zamanı Soprano sesini sadece Altlar müşayiet edir. Diger seslerde ise bir cümle boyu pauza müşahide edilir. Üçüncü cümle ikincinin bir qeder variantlı tekrarıdır. Onu bütün sesler müşyiet edir. Bu zaman Alt sesinde zerbli müşayiet tipi, diger seslerde ise harmonik fon yaradan terkibler yer alır.

İşlemede aktivlik nümayiş etdiren partiya fortepainoda müşahide olunur. İkinci ve cümlenin ifası zamanı fortepiano müşayietinde esas melodiya, üçüncü cümlenin ifasında ise girişin materialı seslendirilir. Bu da işlemeye bir dolğunluq ve ansambl seslenmesi getirir. R.Mustafayevin müşayietli xor üçün işlemelerinde fortepiano partiyası parlaq ve obraz-emosional alemin formalaşmasında özünemexsus ehemiyyet daşıyan mövqeye sahibdir. Bu baxımdan "Ay gözel" xor işlemesi nümune ola biler.

**"Qara gile" mahnısı:**
Esasında xor işlemesi 1981-ci ilde yazılmışdır. Geniş hecmli instrumental girişe malik bu işlemede maraqlı cehetlerden biri de xor partiturasının quruluşunda nezere çarpır. Bele ki, bestekar esas melodiyanı müşayiet eden diger seslerin partiyasında evvelden sona qeder harmonik fon yaradan terkibler vermişdir. Bu da işlemenin sanki solist ve ansambl müşayieti ehval-ruhiyyesini yaratmış olur.

Bundan önce giriş haqqında qeyd etmek lazımdır. Bele ki, girişin mezmunu xalq mahnısının motivleri üzerinde qurulmuşdur ve bitmiş formaya malikdir. Onun quruluşu iki cümleli periodu ifade edir. İkinci cümlenin repriza vasitesile tekrarı zamanı kadansın deyişmesi üç cümlelilik ehval-ruhiyyesi yaradır.

Sopranonun ifasında seslenen melodiyanın birinci cümlesi 6 xaneden ibaretdir. Onu müşayiet eden diger partiyalarda xane boyu saxlanılan sesler "a" hecası ile ifa olunur. Bas sesinde mahnının lad esasını eks etdiren istinad perdesinin vurğulanması, Tenor ve Alt partiyasında ise aşağı istiqametli xromatik hereket yer alır. Maraqlıdır ki, bestekar fortepiano partiyasında da müşayiet xarakterli mezmun nümayiş etdirir. Onun hamofon-harmonik strukturu ümumi seslenmeye xoral xarakteri verir. Lakin işlemenin bu bölmesi sanki xanende ifasını ve instrumental ansambl müşayietini xatırladır. Cümlenin sonunda fortepiano partiyasında yer alan kiçik passaj da buna nümune ola biler.

İkinci cümlenin teqdimatında da heç bir deyişiklik baş vermir. Üçüncü cümlenin ifasında xor partiyası passivliyini saxlasa da, fortepiano müşayietinde canlanma müşahide edilir. Sağ elin partiyası esas melodiyanı ifa edir.

Mahnının orta hissesinde yer alan 4 misralıq bölmede fortepiano partiyası eyni terzde esas melodiyanı seslendirir. Xor seslerinde sesaltı müşayietde yene de xromatik sekundalar aşağı istiqamete yönelmişdir. Tedicen ölçüde genişlenme baş verir ve çerekler yarım notlarla evezlenir.

İşlemede esas melodiyanın vurğulanması mahnının xanende ifası teessüratını yaratmağa yönelmişdir. Melumdur ki, "Qara gile" xalq mahnısı ifaçıdan meharet teleb eden musiqi mezmununa malikdir. Geniş diapazona malik olmasa da, onun ifasında tetbiq edilen çoxlu sayda melizm ve xırdalıqlar xanendeden peşekarlıq ve lirik üslub teleb edir. Bestekar xor işlemesinde mahnının bu xarakterini öne çekerek, onun tefsirinde esas melodiyanın qabarıq seslenmesini teşkil etmişdir. Esas melodiyanı ifa eden Soprano sesleri öz mövqeyini sona qeder qoruyub saxlamışdır. Onunla yanaşı, diger seslerde verilen müşayiet partiyası sanki solisti müşayiet eden ansambl kimi çıxış edir. Lakin bu müşayiet tipinin diger işlemelerde müşahide etdiyimiz instrumental müşayietden ferqi var. Bele ki, burada bestekar esas melodiyanı müşayiet eden diger seslerin partiyasında instrumental ve zerb seslenmesine nail olmağa çalışmır. Eksine bu işlemede daha çox ses qatlarının çoxluğu esas melodiyaya nisbeten sesaltı xetlerin verilmesi ile seciyyelenir. Bu da xalq mahnısının hezin ve sakit tebietini eks etdirir. Bir qeder de deqiqleşdirsek, xorun esas melodiyanı müşayiet etmesi fortepiano partiyasının müşayiet funksiyasını güclendirmeye deyil, eksine xor seslenmesini desteklemeye xidmet etmiş olur.

**"Sevgilim" xalq mahnısı:** Tehlile celb etdiyimiz növbeti nümune "Sevgilim" xalq mahnısına esaslanır. 1999-ci ilde yazılmış bu işleme xanende repertuarında olduqca meşhurdur. "Sevgilim" xor işlemesi geniş




Nota 2: Sevgilim halk mahnısı

instrumental girişli nümuneler sırasına daxildir. Giriş 12 xanelik hecmi ile mahnının leytmotivi üzerinde qurulmuşdur.

İşlemede nezere çarpan daha bir cehet evvelki nümunelerde rast geldiyimiz seslerin paylanma prinsipinin istifade edilmesidir. Bele ki, esas melodiyanın ilk iki xanesi Tenor ve Bas partiyasında unison halda seslendirilir. Davamı ise bütün xor terefinden ifa edilir. Lakin burada seslerin melodik xetti ferqlenir. Bele ki, Tenor ve Soprano sesleri oktava unisonunda verilir, Alt sesi Soprano ile kvarta unisonunda melodiyaya paralellik teşkil edir. Basın partiyası müsteqil olsa da, onun ritmik şekli esas melodiya ile eynilik teşkil edir.

Fortepiano partiyasında bestekar daha çox harmonik fakturaya üstünlük vermişdir. Onu teşkil eden akkord terkibleri ise xorun partiyası ile üst-üste düşür. Belelikle de çoxsaylı unisonlar neticesinde, tutti seslenmesi yaranır. Birinci cümle repriza vasitesile tekrar edilir. Növbeti cümle ise bir defe keçir, lakin onun da fakturası, partiyaların paylanması birinci cümle ile yenilik teşkil edir. 4+4 iki cümleden ibaret period tamamlandıqdan sonra girişin mövzusunu teşkil eden növbeti period başlanır.

Burada xor partiyalarında deyişiklik nümayiş olunur. Bele ki, ilk xanede Alt-Soprano, Tenor-Bas tersiya münasibetinde qurulmuş paralel melodik xetler esas melodiyanı müşayiet edir. Daha sonra ise bu münasibet eyni not üzerinde ritmik ostinatoya çevrilir. Birinci perioddan ferqli olaraq burada birinci cümle tekrarlanmır. İkinci cümlede faktura, seslerin inkişaf istiqameti ve xarakteri olduğu birinci periodda olduğu kimidir.

Fortepiano partiyasında da deyişiklikler diqqeti celb edir. İşlemenin evvelinde üstünlük teşkil eden akkordlu faktura melodiya ve arpeciolu müşayietle evezlenir. Sağ elin partiyasında esas melodiya verilir. İkinci period xalq mahnısının neqaret funksiyasını yerine yetirdiyi üçün bestekar işlemede bu periodu bir daha tekrarlamış ve bununla da xalq mahnısının quruluşunu qoruyub saxlamışdır.

**"Leylam" xalq mahnısı:** Xor işlemesi maraqlı partiturası ile diqqeti celb edir. 10 xanelik fortepiano girişinde bestekar mahnının motivlerinden istifade ederek orijinal musiqi mezmunu teqdim edir. Onun xarakteri mahnının ümumi ehval-ruhiyyesi ile sesleşir. Xüsusile son iki xanede "d" sesi üzerinde 16-lıqların tekrarlanması şen xarakteri bir qeder de güclendirir. Xor partiturasında da maraqlı quruluş yer almışdır. Melodiya enenevi olaraq Soprano sesine hevale edilmişdir. İşlemenin evvelinde onu sadece Tenor ve Alt sesleri müşayiet edir. Onların çıxışı sanki Soprano ile duet teşkil edir ve her xaneden bir replika şekilli partiyaya malikdir.

Bu quruluş işlemenin sonuna qeder saxlanılır. Mahnının kuplet hissesinin melodiyası fortepiano müşayietinde seslenir. Neqaret kimi çıxış eden misralarda ise dördüncü ses de qoşulur, lakin bu Bas deyil. Qadın xoru üçün nezerde tutulmuş bu işlemede xor partiyası sadece I oktava daxilinde yerleşir. "hey" nidaları ile verilen parçada ise xorun yuxarı sesi esas melodiyanı tekrarlayır. İşleme girişin son xaneleri üzerinde tamamlanır.

**Sonuç**

Aparılan tehliler neticesinde deye bilerik ki, R.Mustafayevin müşayietli xor işlemelerinde ilk növbede vokal sesin imkanları xalq mahnı ifaçılığının esas üslub xüsusiyyetleri ile uzlaşır. Xor musiqisinin sirlerine yaxşı beled olan bestekar işlemelerde kollektivin vokal imkanlarını üze çıxarmaqla yanaşı, mahnının obraz-emosional mezmununun çatdırılmasına da xüsusi diqqet yetirir. Müşayietli xor işlemelerinde fortepianonun rolunu qeyd etmek lazımdır. Bestekar bu aleti sadece müşayiet mövqeyinde saxlamayaraq,

onun tembr xüsusiyyetlerinden ustalıqla istifade etmişdir. Milli musiqinin, folklor enenelerinin derinden menimseyen bestekar ferdi üslubunu zenginleşdirmişdir. Lakin bununla yanaşı onun yaradıcılığında özünemexsus cehetlere malik orijinal üslub nümayiş etdirilir. R.Mustafayevin yaradıcılığı xalq musiqi menbeyinden behrelenmekle yanaşı, onun senetkar tefekkürünün süzgecinden keçen yeni keyfiyyetler elde etmesine tekan vermişdir.

**KAYNAKÇA**

Hacıbeyov, Ü.E., (1985). Seçilmiş eserleri. Bakı: Yazıçı.

Qafarova, Z.H., (2009). Ramiz Mustafayev. Bakı: Seda.

Zöhrabov, R., (2001). Ramiz Mustafayev. "Musiqi dünyası" Dergisi. S. 3-4, seh. 78-81

Quliyev, C.R., (2007). Azerbaycan xalq mahnılarının işlenilmesine dair bezi mülahizeler. "Musiqi dünyası" Dergisi. S. 1-2 (31), seh.159-161.

Memmedova, L.M., (2005). Üzeyir Hacıbeyov ve Azerbaycanda xor ifaçılığı seneti (bezi senedlerin izi ile). "Musiqi dünyası" Dergisi. S. 3-4 (25), seh. 98-103.

Tehmirazqızı S. (15.10.2010). Unudulmaz senetkarlar: Ramiz Mustafayev. / Medeniyyet gazetesi.

# Ramiz Mustafayevs style features in choir arrangements with accompaniment

## Extended Abstract

Folk songs, representing the rich genre of folk music, are a unique examples of art. They reflect a great history, the daily life, lifestyle, customs and traditions of the people, philosophical-psychological, social, domestic, religious and secular perceptions, joy and sorrow, heroic chronicles. Folk songs are as old as the history of the people. U. Hajibeyli emphasized the importance of collecting folk songs and of composing them to eternalize and of working with them in scientific researches. He has repeatedly used this genre in his works.

The popularity of folk songs in composers' work has led to the creation of new methods of use. It manifests their creativity. In the work of R. Mustafayev there are several styles of performance of folk song for choir. Among them, the accompaniment choir is of great importance. Eight pieces of choreography are written in piano accompaniment. Among them are "Yaylıq" (accompaniment, 4 part chorus), "Ey, gözel" (accompaniment, 4 voice choral, soloist), "Sevgilim" (accompaniment, 4 part choir, soloist), "Ay gözel" (accompaniment, 4 voice choir) ), "Qara Gile" (accompaniment, 4 choir chorus), "Qara Teller" (accompaniment, 4 voice choral, soloist), "Aman Ovçu" (accompaniment, 4 voice choral, soloist), "Leylam" (accompaniment, 3 voice chorus), "Sevgilim" (accompanied by 4 voice choir) are choral works composed on the basis of folk songs. Apparently, these jobs are grouped according to certain criteria. Their accompaniment and choir, accompaniment choir and soloist are remarkable. Only one of these exercises is designed for 3 voice choirs, each with a 4-voice chorus party.

The soloist party has also been involved in four chorus work, and chorus functioning is based on solo, chorus and piano partrs based on the the folk song "Qara Teller". The piece starts from instrumental five cycles introduction. Its theme does not imply any fraud of the main melody, but is characteristic of the passage and arpeggio, which demonstrates the technical capabilities of the instrument. Arpeggio chords form the based on the instrumental accompany. The chorus party is homophone-harmonic and it acts as a support for the piano party. The composer was able to accompany an ensemble through the tempo of human voices.

The chorus of the "Ay gözel" begins with the introduction of the eight-instrumental entry, which is based on the motives of the song, the first two digits are then expanded in the upper register, down through the sequences, with the passage up to the last two digits ending with the cadence motif. This melody is then played in the second sentence of the choir party, Soprano.
During the performance of the second and the sentence, the main melody of the piano accompanied the song, while the third sentence is played by the entrance. It also brings a fullness and ensemble of work. In the work of R. Mustafayev's accompaniment chorus, the piano party has a position of special importance in shaping the bright and image-emotional world. From this point of view, the "Ay gözel" can serve as a good example.

"Qara Gile" "was recorded in 1981. One of the interesting aspects of this work, which has a large volume of instrumental access, is the formation of the chorus partition. Thus, the composer has given

harmonic background elements from the beginning to the end in the party of other voices accompanying the main melody. This creates a mood of solo and ensemble accompaniment. The next example we draw on is based on the song "Sevgilim". This work, written in 1999, is very popular in the khananda (solist) repertoire. The "Sevgilim" chorus is one of the most extensive instrumental examples. The introduction is based on the leitmotiv of the song with a 12-digit (cycles) volume. Another noteworthy aspect of the operation is the use of the principle of distribution of notes we have encountered in the previous examples. Thus, the first two lines of the main melody are played in the case of Unison in the Tenor and Bass party. In the continuation, the whole chorus is played. But here the melodic line of voices differs.

Tenor and soprano sounds are given in the octave unison, with the lower Soprano parallel to the melody in the quartz unit. Although the press party is independent, its rhythmic shape is similar to the main ringtones. "Leylam" attracts attention with the interesting part of the chorus of folk song. At the entrance to the 10-piano piano, the composer presents original music tracks using the motives of the song. His character sounds with the general mood of the song. In particular, repeating the 16ths on the "d" sound in the last two digits slightly strengthens the hilarious character. There is an interesting structure in the chorus. The melody was traditionally assigned to Soprano's voice.

As a result, the composer's interest in the folk song can be easily seen in his works. In the accompaniment of R. Mustafayev's chorus, first of all the vocal voice capabilities match the basic style of folk song performances. The composer, who is well aware of the details of choral music, not only unveils the singers' vocal talents, but also pays special attention to the song's emotional content. It is necessary to mention the role of the piano in the chorus' performance. The composer used this instrument not only as a companion, but also with skillfulness.

**Keywords**

*composer, choir, instrumental accompaniment, work, folk song, style*